## Azərbaycan dili və ədəbiyyat fənni üzrə olimpiada sualları
## Final turu
## Yuxarı yaş qrupu

**1-ci sual. Mətn əsasında sualları cavablandırın. ( 20 bal)**

**"Tonyukuk"un şərəfinə yazılmış abidə**

"Tonyukuk" abidəsi 1897-ci ildə Y.N.Klements tərəfindən Ulan-Batorun 66 km cənub-şərqində Nalayxa adlanan yaşayış məntəqəsi ilə Tola çayının sağ sahili arasında Bayın-Sokto adlanan yerdə aşkara çıxarılmışdır. Abidə kompleksi iki daşdan ibarətdir: cənub və şimal. Cənubdakı daşın hündürlüyü 1 m 70 sm-dir və bu daşda 1–36-cı sətirlər yerləşdirilmişdir. Şimaldakı daşın hündürlüyü 1 m 60 sm-dir, bu daşda 37–62-ci sətirlər həkk olunmuşdur. 62 sətirdən ibarət olan bu abidə haqqında H.Orkun haqlı olaraq yazır ki, «Tonyukuk» abidəsində 18-ci sətrə qədər İlteris xaqandan, 48-ci sətrə kimi Kapağan xaqandan, sonrakı sətirlərdə isə Tonyukukun özündən danışılır.

Tədqiqatçıları bir qismi abidənin, təxminən 716-cı ildə qoyulduğunu söyləyir, V.Tomsen isə yazır ki, bu abidə 725-ci ildə qoyulmuşdur. 1898-ci ildə abidənin fotosurəti çıxarılmışdır. Bunların əsasında onu ilk dəfə V.V.Radlov oxumuş, tərcümə və nəşr etmişdir. Sonralar Q.Ramstedt (1909), B.Y.Vladimirtsev (1925), P.Aalto (1957), Y.İ.Ubryatova və V.M.Nadelyayev Tonyukuk abidəsini tədqiq etmişlər. Bir müddət sonra Q.Ramstedt vasitəsilə Tonyukuk abidəsinin mükəmməl fotosurətini əldə edən V.Tomsen onu tərcümə etmişdir. Daha sonra H.N.Orkun, S.Y.Malov və M.Ergin də bu abidəni tərcümə və nəşr etmişlər. 1957-ci ildə monqollar abidənin daxil olduğu kompleksdə arxeoloji tədqiqatlar aparmışlar.

Digər Koşo-Saydam abidələrinin (Kül tigin və Bilgə xaqan abidələri) mətnlərinə nisbətən Tonyukuk abidəsi bəzi fərqli qrafik və dil xüsusiyyətlərinə malikdir. Tonyukuk abidəsinin üslubu daha az dəbdəbəlidir. Tonyukuk daha sadə dildə, xalq dilində danışmağa çalışır: mükalimədən, atalar sözü, zərb-məsəllərdən istifadə edir.

Tonyukuk üç türk xaqanının - İlteris, Kapağan və Bilgə xaqanın vəziri olmuşdur. Öz dövrünün çox müdrik, mötəbər şəxsiyyətlərindən olan Tonyukuk Çində mükəmməl təhsil almışdır. Bu barədə abidədə Tonyukukun öz dilindən deyilir: *«Bilgə Tonyukuk bən özüm Tabğaç ilinə kılıntım. Türk bodun Tabğaçka körür erti»* (Müdrik Tonyukuk mən özüm Tabğaç elində tərbiyə (təhsil) aldım. Türk xalqı Tabğaça tabe idi).

Tonyukuk öz ağıllı məsləhətləri ilə Göytürk dövlətinin xaqanlarına yol göstərmiş, baş verəcək hadisələri qeyri-adi uzaqgörənliyi ilə duymuş, bir çox qanlı döyüşlərin qarşısını tədbirlə almağa müvəffəq olmuşdur. **Türk dövlətinin sərhədlərinin genişləndirilməsində, xarici siyasət sahəsində də onun əvəzsiz xidmətləri olmuşdur.** L.N.Qumilyev qədim türklərdən danışarkən Tonyukuku «Türklərin Bismarkı» adlandırmışdır.

«Tonyukuk» abidəsinin müəllifi Tonyukukdur və mətn onun dilindən söylənilir. Abidənin mətnində türk xaqanları, onların gördüyü işlərdən danışılır. Tonyukuk yeri gəldikcə türk dövlətinə xidmət etdiyi illərdə öz həyatından və siyasi fəaliyyətindən də bəhs edir.

**Sual 1. Yanlış fikri müəyyən edin.** (3 bal)

A) Abidənin qoyulması tarixi ilə alimlərin ehtimalları yekdil deyildir.

B) Abidədəki mətn Tonyukukun dilindən söylənmişdir.

C) Kapağan xaqandan həm cənub, həm də şimal daşında bəhs edilmişdir.

D) Abidə kompleksinin şimal daşı həm hündürlüyünə görə, həm də sətirlərin sayına görə cənub daşından geri qalır.

**E) Tonyukuk özü haqqında abidə kompleksinin cənub daşında danışmışdır.**

**Sual 2. Hansı hadisə xronoloji ardıcıllıqda üçüncü sırada gəlir?** (3 bal)

A) Abidənin aşkar edilməsi

B) Abidənin ilk dəfə oxunması

C) Abidənin fotosurətinin çıxarılması

D) B.Y.Vladimirtsevin abidəni tədqiq etməsi

E) Abidə kompleksində arxeoloji tədqiqat aparılması

**Sual 3. Mətndə hansı məlumatı tapmaq olmur?** (3 bal)

A) "Tonyukuk" abidəsinin ehtiva etdiyi məzmun

B) Abidənin hansı alimlər tərəfindən tədqiq edilməsi

**C) "Tonyukuk" abidəsinin üslubunun "Kül tigin" və "Bilgə xaqan" abidələrinin mətnlərinə nisbətən sadə olmasının səbəbi**

D) Tonyukukun Göytürk xaqanlığında böyük nüfuz qazanmasının səbəbi

E) Abidənin fiziki xüsusiyyətləri

**Sual 4. Mətndə altından xətt çəkilmiş abzasın müddəası hesab oluna bilməz:** (3 bal)

A) Tonyukuk abidəsi o dövrün xalq danışıq dilinə aid materiallar ehtiva edir.

B) Tonyukuk abidəsi də Kül tigin və Bilgə xaqan abidələri kimi Koşo-Saydam abidələrinə daxildir.

C) Kül tigin və Bilgə xaqan abidələrində Tonyukuk abidəsi ilə müqayisədə daha dəbdəbəli üslubdan istifadə edilmişdir.

**D) Kül tigin və Bilgə xaqan abidələrində atalar sözü və zərb-məsəllərdən istifadə edilməmişdir.**

E) Mükalimə, atalar sözləri, zərb-məsəllər xalq dilinə xas xüsusiyyətlər sayılır.

**5. Mətnə görə aşağıdakı fikirlərdən biri düzgün hesab oluna bilər.** (3 bal)

A) Abidənin araşdırılması ilə B.Y.Vladimirtsev, L.N.Qumilyev, P.Aalto, Y.İ.Ubryatova və V.M.Nadelyayev də məşğul olmuşdur.

B) Monqollar "Tonyukuk" abidəsinin daxil olduğu kompleksdə abidənin tapıldığı ərəfədə arxeoloji tədqiqatlar aparmışlar.

C) S.Y.Malov "Tonyukuk" abidəsini Tomsendən əvvəl tərcümə etmişdir.

D) Abidənin V.V.Radlov və Tomsen tərəfindən oxunmasında və tərcüməsində Q.Ramstedin çıxardığı fotosurət əhəmiyyətli rol oynamışdır.

**E) "Bilgə Tonyukuk bən özüm Tabğaç ilinə kılıntım. Türk bodun Tabğaçka körür erti" - fakt-cümləsində nəticə-səbəb əlaqəsi tapmaq mümkündür.**

**Sual 6. Mətndə hansı sualın cavabı yoxdur?** (3 bal)
A) Tonyukuk harada təhsil almışdır?
B) Çinin qədim adı nə olmuşdur?
**C) "Tonyukuk" abidəsi dəqiq hansı tarixdə qoyulmuşdur?**
D) Tonyukuk türk dövlətinə hansı xidmətləri göstərmişdir?
E) "Tonyukuk" abidəsi harada tapılmışdır?

**Sual 7. Mətndən verilmiş cümləni sintaktik təhlil edin.** (2 bal)

Türk dövlətinin sərhədlərinin genişləndirilməsində, xarici siyasət sahəsində də onun əvəzsiz xidmətləri olmuşdur.

**2-ci sual. Cədvələ əsasən cavablandırın.** 10 bal

| **Tabeli mürəkkəb cümlə** | **Budaq cümlənin növü** |
|---|---|
| 1. Nə gücüm çatdı ki, səndən yapışım,<br>Nə gücüm çatdı ki, səndən qaçam mən... (C.Novruz) | **Tamamlıq budaq cümləsi** |
| 2. Mən bir sönməz ulduzam ki, daim işıq saçaram,<br>Mən bir oynaq bülbüləm ki, güldən-gülə uçaram...(C.Cabbarlı) | **Təyin budaq cümləsi** |
| 3. Nə qədər dedim, faydası olmadı. | **Qarşılıq-güzəşt budaq cümləsi** |
| 4. Bu fikirləri sənə o səbəbə deyirəm ki, gələcəkdə yanlış addımlar atmayasan. | **Məqsəd budaq cümləsi** |
| 5. Nə qədər göylər var, mən səninləyəm,<br>Nə qədər dəniz var, sən mənimləsən. (N.Xəzri) | **Zaman budaq cümləsi** |
| 6. Toplanılmış məlumatlar ona görədir ki, fəaliyyətdə olan qurumların işlərini təhlil etmək asanlaşsın. | **Xəbər budaq cümləsi** |
| 7. Bu müddət ərzində mənə elə gəlirdi ki, əl işlərinin hamısını Nərminə hazırlayır. | **Mübtəda budaq cümləsi** |
| 8. Nə qədər adam varsa, o qədər də stul gətirilməlidir. | **Təyin budaq cümləsi** |
| 9. Elə ki yerindən-yurdundan didərgin düşmüş birini görürdü, onda öz gənclik illərini xatırlayardı. | **Zaman budaq cümləsi** |
| 10. Ona dəfələrlə xəbərdarlıq edilsə də, yenə öz yolundan dönməyib sonuna qədər mübarizə apardı. | **Qarşılıq-güzəşt budaq cümləsi** |

**3-cü sual. Sözlərin leksik xüsusiyyətləri ilə bağlı sualları cavablandırın. (10 bal)**

1. Sözlərin leksik mənalarını müəyyənləşdirin. 5 bal

1. Hakaton – **İT sahəsi üzrə müsabiqə, proqramçıların layihə hazırladıqları və yarışdıqları tədbirlər silsiləsi**

2. İstilah – **termin, xüsusi ifadə**

3. Reformator – **islahatçı**

4. Təşviq – **bir işi görmək üçün həvəsləndirmə, dilə tutma**

5. İnaqurasiya – **təntənəli and içmə**

2. Verilən hərflərin yerini dəyişməklə sözlər-terminlər düzəldin və sahə baxımından fərqli olanı müəyyən edin (hərflərin sayı qorunmalıdır). 5 bal

1. kaonirm – **akronim**

2. ravabteiur – **abreviatur**

3. ssskniita- **sintaksis**

4. mlgeiotyaoi – **etimologiya**

5. iqraoyfeatn – **etnoqrafiya – fərqli sahə**

## 4-cü sual. Testləri cavablandırın. (6 bal)

**1. Uyğun olmayanı müəyyən edin.** (2 bal)

| | | |
|---|---|---|
| A) | *-ca²* qoşması ismin müxtəlif hallı sözlərinə qoşularaq üç fərqli məna çaları əmələ gətirə bilər. | Doğru |
| B) | Mürəkkəb nidalar bitişik, defislə və ayrı yazılır. | Yanlış |
| **C)** | **Düzəltmə zərflər isim, sifət, say və əvəzlikdən yaransa da, feildən yarana bilməz.** | **Doğru** |
| D) | *Hətta, yoxsa, ancaq* sözləri həm bağlayıcı, həm də ədat kimi işlənə bilər. | Yanlış |
| E) | Bəzi məqamlarda I və II şəxs əvəzlikləri qeyri-insani varlıqları əvəz edə bilər. | Doğru |

**2. Eyler-Venn diaqramına əsasən "Qoca və dəniz" (E.Heminquey) əsərindən verilmiş cümlələrlə bağlı uyğunluğu müəyyən edin (durğu işarələri buraxılmışdır).** (2 bal)




▲ Doğma oğlum olsaydın heç nəyə fikir verməyib riskə gedər səni özümlə dənizə aparardım qoca təəssüfləndi heyif ki başqasının oğlusan özün də uğurlu qayığa düşmüsən.

■ Mən də bəlkə işlədiyim qayığın yiyəsini dilə tutub uzaqlara apara bildim oğlan gülümsədi qarmağına iri balıq keçsə köməyinə gələrik.

1. Feilin quruluşca hər üç növündən istifadə olunmuşdur.
2. Üç tire, altı vergül işarəsi buraxılmışdır
3. Köməkçi nitq hissələrindən yalnız bağlayıcı və modal söz işlənmişdir.
4. Müəllifin sözləri vasitəsiz nitqin arasında işlənmişdir.
5. Frazeoloji birləşmələrdən istifadə olunmuşdur.

A) I – 1, 3; II – 4; III – 2, 5
**B) I – 2, 5; II – 3; III – 1, 4**
C) I – 1, 3; II – 4, 5; III – 2
D) I – 2; II – 1, 3; III – 4, 5
E) I – 4; II – 1, 3; III – 2

**3. Uyğunluğu müəyyən edin.** (2 bal)

1. Bağlayıcı ilə omonimliyi olan ədatın işləndiyi cümlə
2. Qoşma ilə omonimliyi olan bağlayıcının işləndiyi cümlə
3. Ədatla omonimliyi olan qoşmanın işləndiyi cümlə

*a. Bu aralar mənim də heç nəyə həvəsim yoxdur.*
*b. Sinif otağı çatışmazlığından yaşca özündən böyük olan uşaqlarla oxumalı olmuşdu.*
*c. Bu işdə ancaq qardaşıma güvənə bilərəm.*
*d. "Mərdlə Namərdin nağılı"nı şagirdlərimlə səhnələşdirdik.*
*e. Tək bir gün biz işdə olduğumuz üçün anamla xalam getməli oldu.*

A) 1-a, c 2-e, 3-b   B) 1-c, 2-d, 3- b
C) 1-c, 2-b, d 3-e   D) 1-a, 2-d, 3-b
E) 1-a,c, 2-b,d 3-e

## 5-ci sual. Verilmiş nümunələrlə bağlı tələb olunan məlumatları qeyd edin. (10 bal)

**1. Verilmiş parçalara əsasən əsərləri müəyyən edin.** (2 bal)

1. – Budur, mövhumatçılar demiş, şükür Allaha, uzaqda deyil, göz qabağındadır.

Budur müzür-ünsürün siması.

2. Cib dəsmallarının uclarını düyünləyib başlarına keçirmiş biçinçilərin oraqları cingildəyirdi. Bu cingiltilər kövşənlərin xışıltısına qarışmışdı. Biçinçilər tələsirdilər. Onlar da istəyirdilər ki, işlərini tezcə qurtarıb aldıqları haqqı elə buradaca, aranda, xırmanda döyüb taxıllarını yaylağa balalarına aparsınlar.

3. Köhnə nəslin son qəhrəmanı olan bu qadın hələ qarşımda oturmuş, mənə meydan oxuyur, həm də ata-babadan qalmış keçmiş əxlaq və səciyyələrini bütün hal və hərəkətləri ilə mənə anladırdı.

4. Məndə qəribə bir arzu baş qaldırdı: iki ömür istəyirəm. İstəyirəm ki, ilk ömrüm – təcrübə dərsi olsun; bu mürəkkəb dünyanı, qapalı adamları öyrənməyə sərf olunsun. İmtahandan çıxa bilsəm, mənə ikinci – həqiqi ömür imkanı verilsin.

**1. "Açıq kitab"**

**2. "Namərd gülləsi"**

**3. "Anabacı"**

**4. "Vətən yaraları"**

**2. Atalar sözləri və ya məsəllərin hansı əsərdən və kimlərin dilindən olduğunu müəyyən edin. (2 bal)**

*1. "Daldan atılan daş topuğa dəyər"*

*2. "Yönlü oğul neylər ata malını,yönsüz oğul neylər ata malını"*

*3. "Bir könlü ki tikməyəcəksən, niyə yıxırsan?"*

*4. "İsgəndərə qalmayan dünya kimə qalacaq?"*

a. M.İbrahimov "Azad" əsəri, Fərda

b. Elçin "Talvar" əsəri, Əliabbas

c. H.Cavid "Ana" əsəri, İzzət

d. S. Rəhimov " Qara torpaq və sarı qızıl" əsəri, kəndin ağsaqqalı

Cavab: **1- C, 2- D, 3- A, 4- B**

**3. Əsərlərin məzmunu ilə bağlı olan tapşırıqları həll edin. 2 bal**

**1. C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri ilə bağlı doğru fikirlərin məzmun ardıcıllığı hansı variantda verilmişdir? 2 bal**

1) Cəmiyyəti-xeyriyyənin iclasında Mirzə Baxşəli məktəb proqramı barəsində məsələyə münasibətini bildirir.
2) Zəhrabəyim ana birinci məclisdə hər üç oğlu üçün qoynunda saxladığı bayazı çıxarır, lakin heç bir oğlu bunu əhəmiyyət vermir.
3) Rüstəm bəylə Mirzə Məhəmmədəli arasında ilk mübahisə bacıları Gülbaharla bağlı olur.
4) Gülbahar qardaşlarının kitablarını yandırdıqdan sonra anasının ona verdiyi kitabdan atasının öz əli ilə yazdığı vəsiyyəti oxuyur.
5) Senzorun gəlişindən əvvəl Mirzə Məhəmmədəli və Səməd Vahid kitablarını yığışdırıb evdən getmək istəyəndə Zəhrabəyim ana onlara mane olmağa çalışır.
6) Mirzə Zeynal cəmiyyəti-xeyriyyənin iclasında rus dilində danışılmasına "Ana dili, ana dili, Azərbaycan dili, milli dil", – deyə etirazını bildirir.

A) 3, 1, 4 B) 3, 2, 5 C) 6, 1, 5 D) 2, 5, 4 E) 2, 6, 1

**2. N.Gəncəvinin "İskəndərnamə" əsəri ilə bağlı doğru və yanlış fikirlərin müvafiq olaraq hansı variantda düzgün qruplaşdırıldığını müəyyən edin. 2 bal**

1) *O həddsiz ordudan qorxdu hökmüran*
*Qorxusuz olurmu ağıllı insan?* – İskəndərin və onun qoşununun Bərdəyə gəldiyini eşidən Nüşabə haqqındadır.

2) *Biz uca dağlara qaçıb qorxudan*
*Quştək ağaclarda salarıq məkan* – Misirlilər Zəncilərin hücumlarından İskəndəri xəbərdar edirlər.

3) *Dovşanını hər bir yerin – məsəl var, –*
*Yenə də o yerin tazısı tutar* – Daranın xain adamları onu öldürmək üçün İsgəndərlə peyman bağlayır, İskəndərin xatirinə bu sözlər gəlir.

4) *Tədbirə ehtiyac duyduğu zaman*
*Açıb oxuyardı bir-bir onlardan* – İskəndərin nəsihətnamələri oxuması nəzərdə tutulur. Bu nəsihətnamələr 3 alim – Ərəstu, Əflatun və Sokratın yazdığı nəsihətlərdir.

5) *Onunla et çətin işdə məşvərət*
*Qılıncdan kəskindir gözəl məsləhət* – Feyləqus bu sözləri İskəndərə Ərəstunu nəzərdə tutaraq söyləyir.

6) *Qalx, – dedi – bəxtini sına, zamandır,*
*Belə əjdahanı məhv etmək şandır* – Ərəstu İskəndərə Zənci oldusu ilə vuruşmaq üçün Misirə getməyi məsləhət görür.

A) 1, 3, 5 – 2, 4, 6
**B) 1, 2, 5 – 3, 4, 6**
C) 2, 4, – 1, 3, 5, 6
D) 2, 3, 5, 6 – 1, 4
E) 1, 5, 6, – 2, 3, 4

**3. İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərindən verilmiş nümunələrin məzmun ardıcıllığını müəyyən edin.**

1) – Düşünürəm ki, bizim xalqların taleyi nə qədər bir-birinə bənzəyir.
2) – Lakin bir həqiqət var ki, İran taxtına mənim yolum Cənubi Azərbaycandandır.
3) – İki böyük dövlətin qədim bir tarixi olan Azərbaycan xalqını iki yerə parçalayıb qardaşı qardaşdan ayırmaları ədalətli iş deyildir.
4) – Tehranda yazıq atam on dörd saat xalı karxanasında fəhləlik eləyib məni oxudurdu.
5) – Əgər sən insanları burulğanlardan çıxarmaq haqqında düşünsəydin, Arazın o tayında boğulan azərbaycanlılar bir dəfə də olsa, yadına düşərdi.
6) – Arzular müxtəlif olduğu qədər də ziddiyyətlidir, deyirlər, sizin yazıçılar, ziyalılar hər cür mütləqiyyət əleyhinədirlər.

A) 1, 2, 4, 5, 6, 3
B) 4, 3, 6, 2, 1, 5
**C) 3, 1, 4, 2, 6, 5**
D) 6, 2, 5, 3, 4, 1
E) 2, 5, 1, 4, 3, 6

**6-cı sual. Cədvələ əsasən doğru fikirləri seçin. (4 bal)**

| *Doğrudur* | *Yanlışdır* |
|---|---|
| 1. "Dəli Kür" (İ.Şıxlı) və "Anamın kitabı" (C.Məmmədquluzadə) əsərlərinin adı rəmzi məna daşıyır. | 5. Felyeton janrı publisistikamıza "Molla Nəsrəddin" jurnalı vasitəsilə daxil olmuşdur. |
| 2. İ. Əfəndiyev ədəbiyyatımızda lirik-psixoloji nəsrin əsas yaradıcılarındandır. | 6. "Qızıl qönçələr", "Bir gəncin manifesti", "Gələcək gün", "Nurəddin" əsərlərində uşaq əməyinin istismarına qarşı kəskin münasibət var. |
| 3. Bədii yaradıcılıq metodu yazıçıların müəyyən bir zaman kəsimində fikir və amal bənzərliyinə görə qruplaşması əsasında formalaşır. | 7. M.Hadi romantik-publisist şeirin yaradıcısı hesab olunur. |
| 4. "Açıq kitab" (Mir Cəlal) əsərində baş qəhrəmanın apardığı mübarizə şəxsi deyil, ictimai mahiyyət daşıyır. | 8. M.Ə.Sabir və C.Cabbarlı həm mövzusu, həm də adı eyni olan şeir müəllifidirlər. |

Doğru fikirlər:__ **1, 2, 4, 6**

**7-ci sual. M.Füzulinin yaradıcılığı ilə bağlı verilmiş mətndəki boşluqları doldurun. (10 bal)**

Füzuli (1) **qəsidələrini** daha çox ana dilində yazmışdır. Onun bu janrda yazdığı əsərlər islam dininin böyük şəxsiyyətlərinə, zamanə hökmdarlarına, tarixi hadisələrə həsr edilmişdir. Şairin poemaları yaradıcılığında xüsusi yer tutur. (2) **"Leyli və Məcnun"** çıxılmaqla, qalan üç poema alleqorik səciyyəlidir. Bu üç poema müxtəlif mövzularda yazılsa da, ideyalarında oxşarlıqlar da var. Onlarda təkəbbürlü hökmdarların mənasız müharibələr törətməklə insanları qırğına verməsi (3) **"Bəngü Badə"**, şöhrətpərəstlik, mənəmlik (4) **"Söhbətül-əsmar"**, cəmiyyətdə, ictimai quruluşda müşahidə edilən eyiblər (5) **"Həft cam"da** kəskin tənqid edilmişdir.

Füzuli klassik nəsrin böyük ustadı sayılır. Onun (6) **"Şikayətnamə"**, adı ilə tanınan məktubu ictimai məzmunu və bədii dəyəri ilə daha qiymətlidir. Ana dilində olan (7) **"Hədiqətüs-süəda"**əsərində məşhur din xadimlərinin həyatı, fəaliyyəti, məhrumiyyətləri əks olunmuşdur. Farsca yazılmış (8) **"Rindü Zahid"** əsasında insan, həyat haqqında fərqli baxışların qarşılaşması, mübahisəsi dayanır. Fars dilində nəsrlə yazılmış (9) **"Səhhət və Mərəz"** alleqorik əsərində isə müəllifin elmi, dini-fəlsəfi və sufi-panteist görüşləri vəhdət şəklində ifadəsini tapmışdır.

Füzuli ədəbiyyat tarixində mahir tərcüməçi kimi də tanınmışdır. Tərcümələri arasında (10) **"Hədisi-ərbəin"** önəmli yer tutur. Fars-tacik şairi Əbdürrəhman Caminin eyniadlı əsərini ana dilinə tərcümə etməklə şair türkdilli oxucuların bu məşhur əsərdən faydalanmaları, zövq almaları məqsədini güdmüşdür.

**Gənc linqvist** rubrikası

*Əziz şagirdlər, bu hissədə verilən tapşırıqlar sizin ümumi linqvistik biliyinizi, tədqiqatçılıq qabiliyyətlərinizi və dil duyumunuzu qiymətləndirmək məqsədilə hazırlanmışdır. Bu suallar bəzən bilmədiyiniz, hətta indiyə qədər barəsində eşitmədiyiniz dillər və yazı sistemləri ilə də bağlı ola bilər. Tapşırıqlarda verilən materialları düzgün məntiqi təhlil etməyiniz cavabları tapmağa kömək edəcəkdir. Məlumat üçün qeyd edək ki, dünya dilçilik olimpiadalarında bu tip suallardan geniş istifadə olunur.*



## 8-ci sual. Navi dili. (10 bal)

Navi dili (Na'vi) dilçi Paul Frommer tərəfindən Ceyms Kemeronun elmi-fantastik filmi "Avatar" (2009) üçün tərtib edilmişdir. Filmdə bu dildə Pandora planetinin şüurlu sakinləri danışırlar.

Navi dilində olan cümlələr və onların Azərbaycan dilinə tərcümələri verilmişdir:

1. *'Eveng kä* — Uşaq gəlir.
2. *Sanokil seiutx Mo'atit* — Ana Moatın ardınca gedir.
3. *Tsu'teyil pamom Silwaninit* — Tsutey Silvanini öpdü.
4. *Sempulil mamungänge 'evengit* — Ata uşağı apardı.
5. *Silwanin kayeiä* — Silvanin gələcək.
6. *Yerik slele* — Yerik üzür.
7. *'Eylan tameiul* — Dost qaçdı.
8. *Mo'atil tayarängon yerikit* — Moat yeriki ovlayacaq.
9. *Sempul hamangham* — Ata güldü.
10. *Koaktanil spaw toktorit* — Qoca həkimə inanır.
11. *Tsmukan slayelänge* — Qardaş üzəcək.
12. *'Evengil omeium Tsu'teyit* — Uşaq Tsuteyi tanıyır.
13. *Tsahìkil tsaye'änga ikranit* — Kahin ikranı görəcək.

**Tapşırıq 1.** Azərbaycan dilinə tərcümə edin: (5 bal)

1. *Silwaninil pom sanokit.* __________***Silvanin ananı öpür.***_____

2. *Tsmukanil mayungeie sempulit.* __________***Qardaş atanı aparacaq***______

3. *Sanok kängä.* ______________***Ana gəlir.***________

4. *Yerikil amomum koaktanit.* ___________***Yerik qocanı tanıdı***__________

5. *Silwaninil spayängaw tsahìkit.* _________***Silvanin kahinə inanacaq***______

**Tapşırıq 2.** Navi dilinə tərcümə edin: (5bal)

1. Moat qaçır. ________ ***Mo'at tul***______________________________________

2. Dost kahinin ardınca getdi. ________***Eylanil samutx tsahìkit***_____

3. Qoca güləcək. __________***Koaktan hayanghängam***___________

4. Həkim dostu görür. ______ ***Toktoril tse'a 'eylanit.***______________

5. Tsutey üzdü. ________________***Tsu'tey slameleie.***__________________

***Qeyd.*** ***Yerik*** *altıayaqlı maraldır,* ***ikran*** *isə Pandora planetinin qanadlı yırtıcısıdır. Moat, Silvanin, Tsutey Avatar filmində navi qəbiləsindən olan personajların adlarıdır.*

***İpucu:*** *Navi dilində indiki zaman şəkilçisiz işlənir. İsmin fərqli halları eyni şəkilçi ilə işlənə bilər. Cümlənin müxtəsər və geniş olmasından asılı olaraq mübtəda vəzifəsindəki sözün forması fərqlənə bilər.*

**9-cu sual. Oqam əlifbası (10 bal)**

Oqam yazısından qədim Britaniyada yaşamış keltlər, piktlər və irlandlar istifadə etmişlər. Oqam yazılı abidələrinin əksəriyyəti eramızın 5-6-cı əsrlərinə aiddir. Bu yazı tipini digər əlifbalardan fərqləndirən bir sıra xüsusiyyətlər vardır. Bu xüsusiyyətlərdən biri də yazının istiqamətidir.

Latın və Oqam qrafikalı əlifba ilə yazılmış qədim irland dilində bitki adları verilmişdir – **US, GORT, MUİNN, PETHBOL, RUİS** (bitki adlarının Azərbaycan dilində verilmiş tərcümələri sadəcə məlumat xarakteri daşıyır, çalışmanın həlli ilə bağlı deyil).



us (süpürgəotu) gort (sarmaşıq) muinn (üzüm tənəyi) pethbol (moruq) ruis (gəndalaş)

Tapşırıq 1. Latın qrafikalı əlifba ilə yazın. (4 bal)



bethe (ağcaqayın) alim (küknar)

Tapşırıq 2. Verilmiş bitki adlarının aşağısında həmin sözlərin Oqam qrafikası ilə qarşılığını yazın (çəkin). (6 bal)

**nim** (göyrüş) **luis** (qarağac)

